**İradə BAYRAMOVA**
*"Biblioqrafiyaşünaslıq" kafedrasının müəllimi*

# ARAN İQTİSADİ REGİONUNDA OXUCULARA BİBLİOQRAFİK-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

***Açar sözlər:*** *Aran iqtisadi rayonu, biblioqrafik-informasiya xidməti, resursların yerləşməsi və istifadəsi, elektron resurslar*

***Ключевые слова:*** *Аранский экономический район, библиографические-информационной службы, размещение в использование ресурсы, элоктронные ресурсы*

***Key words:*** *Aran economic region, bibliographic-information service, settle and usage of the resources,electron resource*

Respublikanın iqtisadi rayonlarında, kitabxana-informasiya sisteminin inkişafı dövlət tərəfindən diqqət mərkəzində saxlanılan sahələrdən biri kimi önəm daşıyır. Bu sahənin inkişafı, cəmiyyət üzvlərinin intellektual-mədəni potensialının zənginləşdirilməsində, elmin, texnikanın ən yeni nailliyyətlərinin öyrənilməsində, gənclərin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasında onlara yüksək vətənpərvərlik hisslərinin aşılanmasında, kitabxanaların əvəzsiz rol oynadığını göstərir.

1998-ci ildə qəbul edilmiş –"Kitabxana işi haqqında" Qanunda deyilirdi: Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institudur.(3.)

Kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun tələbatını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxanaların yaranması, formalaşması, inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə, onu yaradan cəmiyyətlə bağlıdır. Son illərdə, imzalanmış qanun və sərəncamlar, dövlətin bu sahəyə diqqətinin bir təzahürüdür. Kitabxana-informasiya sahəsinin inkişaf etdirilməsi üçün, dövlət başçısı İlham Əliyev,

2007-ci il 20 aprel tarixində "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması" haqqında sərəncam verdi.(2.)

Kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etmək üçün, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı mühüm əhəmiyyət daşıyır. Dövlət Proqramının əsas məqsədi, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda, habelə, digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.(1.)

Kitabxanasız informasiya xidmətinin məqsədyönlü təşkilindən və son nəticəsindən danışmamaq olmaz. Məhz buna görədir ki, informasiyalaşdırılmış cəmiyyətdə, bu cəmiyyətin əsas atributlarından biri olan kitabxana işini zamanın tələblərinə uyğun qurmadan, onu kompüterləşdirmədən, informasiyalaşdırmadan, informasiya xidmətinin mərkəzinə çevirmədən keçinmək mümkün deyil. Bu da hər şeydən əvvəl kitabxanaların kompüterləşdirilməsini, kompüter texnologiyasının sürətlə kitabxana işinə tətbiq edilməsini, kitabxanaların, ilk növbədə, böyük kitabxanaların regional və qlobal kompüter şəbəkəsinə qoşulmasını tələb edir.(5.S.184-185)

Biblioqrafik-informasiya xidməti kitabxanalarda aparıcı istiqamətə malikdir. Kitabxananın bir çox göstəriciləri, o cümlədən fonddan səmərəli istifadə, aparılan biblioqrafik-informasiya xidmətinin səviyyəsindən çox asılıdır. Biblioqrafik-informasiya xidmətinin məzmun xarakteri və əhatə dairəsi kitabxananın tipindən, onun yerinə yetirdiyi vəzifədən və hər bir kitabxananın xarakterik xüsusiyyətlərindən asılı olaraq müəyyənləşdirilir.

Biblioqrafik-informasiya ilkin sənədlərin analitik təhlili və sintez edilməsi nəticəsində yaranan informasiyadır. O, sənədləşdirilmiş və ikinci hesab edilən xüsusi informasiya növünə daxildir.



Azərbaycan Respublikasının bütün iqtisadi regionlarında, soraq biblioqrafiya aparatı (SBA) biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. SBA-da kitabxananın informasiya resursları tam əks olunur. İqtisadi rayonların profili burada fəaliyyət göstərən MKS-lərin xidmət etdiyi ərazilərdə oxucu kontingetinə də təsir göstərir.

SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, MKS-də tərtib olunan kartotekalar və.s aiddir. Son illərdə kitabxanaların avtomatlaşdırılması və kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi nəticəsində MKS-də soraq biblioqrafiya aparatı daha da zənginləşmişdir. Bu isə, MKS-də olan ənənəvi kataloq və kartotekaların elektron informasiya daşıyıcılarına köçürülməsinə imkan yaradır.

SBA sənədləri formaca biblioqrafiya, kitabxana və faktoqrafik məlumatları mühafizə edib saxlayır. Digər məlumat mənbələrindən SBA, onunla fərqlənir ki, onun köməyi ilə verilən mənbələr, məlumatlar operativ, tam və digər kəmiyyət, keyfiyyət xarakterinə malik olur. Beləliklə, SBA-nın şərhini belə ümumiləşdirmək olar:

SBA-sənədli məlumat-axtarış sistemi olub, kitabxana, biblioqrafik və faktoqrafik məlumatın təbliği, axtarışı və verilməsinin optimallaşırılması məqsədi daşıyır.

Ölkənin iqtisadi rayonlarında bütün kitabxanalarda əhaliyə biblioqrafik-informasiya xidmətinin təşkili 2 istiqamətdə: Biblioqrafik-İnformasiya Xidməti və Soraq Biblioqrafiya Xidməti istiqamətlərində yerinə yetirilir.

BİX daimi sorğular əsasında aparılan xidmətdir. Yeni ədəbiyyatlar haqqında oxuculara vaxtaşırı biblioqrafik- informasiya çatdırılmasını nəzərdə tutur. BİX-dən fərqli olaraq, SBX birdəfəlik sorğu anlayışı ilə əlaqədardır. Ümumiyyətlə, BİX kitabxananın aktiv, SBX-ı isə passiv xidmət forması hesab olunur.

Hazırda, Azərbaycan Respublikasının iqtisadi rayonlarında hər bir oxucuya daha rəngarəng formada, səmərəli şəkildə biblioqrafik xidmət göstərmək üçün əsl şərait yaranmışdır.

MKS-lərdə mütəxəssislərin BİX-ni təşkil edərkən elmi-texniki məlumat orqanlarının fəaliyyətini nəzərə alınır. Çünki sahəvi ərazi elmi texniki məlumat orqanları həmin ərazidəki idarə və müəssisə mütəxəssislərinə həmçinin kənd təsərrüfatı işçilərinə biblioqrafik xidmət göstərməlidirlər. Bu mərkəzlərin fəaliyyətinin əsasını ayrı-ayrı mütəxəssislərə deyil, ümumilikdə, əvvəlcədən öyrənilmiş informasiya tələbatları əsasında kollektiv xidmət göstərilir. Bunun üçün isə BİX-nin müxtəlif formalarından istifadə olunur.

Əsas etibarilə xüsusi növ texniki ədəbiyyatın, qabaqcıl iş təcrübəsinə həsr olunmuş sənədlərin, kitab və jurnal məqalələrinin təlabatçılara çatdırılmasına səy göstərilir. Bunu nəzərə alaraq, MKS-lər, mütəxəssislərin biblioqrafik-informasiya tələbatlarının ödənilməsində ərazi məlumat orqanlarının olmasına baxmayaraq, kənd təsərrüfatı mütəxəssisləri MKS-nin iştirakı olmadan kitabxana-biblioqrafiya xidməti ilə əhatə oluna bilməz. BİX-nin xarakteri, məzmunu və həcmi MKS-nin kadr və maddi imkanlarından çox asılıdır.

BİX-nin ənənəvi formalarından: kitabxanaya daxil olan yeni ədəbiyyatın cari bülletenləri, mütəxəssis günləri, məlumat günləri, sərgi-baxışlar, kitab xülasələri, biblioqrafik icmallar, oxucu konfransları, kitab təqdimatları, ədəbi-bədii gecələr, görüşlər və s. metodlardan iqtisadi regionların Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində də istifadə olunur.

Azərbaycan Respublikasının Aran iqtisadi regionu, ərazisinin sahəsinə və əhalisinin sayına görə, ölkənin ən iri ikinci iqtisadi regionudur. İqtisadi regionun tərkibinə Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonları və Mingəçevir, Yevlax, Şirvan şəhərləri daxildir.

İqtisadi rayonda fəaliyyət göstərən bütün MKS-lər Soraq Biblioqrafiya Aparatına malikdir. Əhalinin informasiya təminatının ödənilməsində MKS-də biblioqrafik xidmətinin düzgün təşkil edilməsinin əhəmiyyəti çox böyükdür. MKS-lərin oxucuları müxtəlif qruplara ayrilir. Bunlara həkimlər, müəllimlər, şagirdlər, tələbələr, mütəxəssislər, elm xadimləri və s. aiddir.

Mingəçevir MKS-i, əsası 1956-cı ildə qoyulmuş kitabxananın fondu əsasında 1978-ci ildə mərkəzləşdirilmişdir. Mərkəzləşdirilmiş Kitabxana Sisteminə M.P.Vaqif adına Mərkəzi şəhər kitabxanası və 11 filial kitabxana sistemi daxildir. 2012-ci ildə MKS-in fondu 315074 nüsxə, kitab verilişi 777543 nüsxə, oxucuların sayı 42244 nəfər olmuşdur. MKS-in 6 şöbəsi var: Xidmət şöbəsi, Komplektləşdirmə və kitabişləmə şöbəsi, Metodika-biblioqrafiya şöbəsi, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, İnformasiya-resurs şöbəsi, Uşaq şöbəsi; (8.)

MKS 1982-ci ildən 3 qrupda fəaliyyət göstərir. MKS "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Qanunları, Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamını, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı, Mədəniyyət və Turizm Nazirliyinin Əmr və Sərəncamlarını əldə rəhbər tutaraq fəaliyyət göstərir.



"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitabxanaların informasiyalaşdırılması işi davam etdirilir. Bu məqsədlə, Mingəçevir şəhər MKS-nin Veb-saytı da internet şəbəkəsində yerləşdirilib. Veb-saytda məlumatlar 3 bölmədə sistemləşdirilmişdir: Birinci kitabxana haqqında məlumatlar; ikinci şəhər, şəhərin iqtisadiyyatı, tarixi abidələr və turizm potensialı; üçüncü - Azərbaycan haqqında, respublikamızın dövlət rəmzləri, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlar, habelə, Mədəniyyət və Turizm Nazirliyi və Mingəçevir şəhər icra hakimiyyətinin Veb-saytlarına birbaşa keçid linkləri yerləşdirilmişdir. "Kitabxana" bölməsində kitabxana və onun şöbələri haqqında məlumatlar verilmişdir. Veb-saytda "Xəbərlər" bölməsində şəhər MKS-də keçirilən tədbirlərin fotoları yerləşdirilmişdir. Veb-saytın "Bizim şəhər" bölməsində Mingəçevir şəhəri, onun tarixi və müasir Mingəçevir haqqında maraqlı məlumatlar təqdim edilir. "Memarlıq abidələri" bölməsində şəhər ərazisində mövcud olan və mühafizə edilən bir sıra tarixi abidələr və onların fotoşəkilləri yerləşdirilmişdir.

Şəhər MKS-nin Veb-saytının "İqtisadiyyat" və "Turizm potensialı" bölmələrində Mingəçevirin respublika iqtisadiyyatında tutduğu yer, şəhərin respublika enerji təminatçısı kimi rolu, yeni açılmış istehsalat obyektləri, habelə, şəhərin turizm gözəllikləri əks olunmuşdur. Veb-saytın "Doğma Azərbaycan" və "Dövlət rəmzləri" bölmələrində Azərbaycan haqqında zəngin məlumat portalı olan www.azerbaijan.az saytına birbaşa keçid linki qoyulmuş, dövlət rəmzləri haqqında geniş məlumatlar yerləşdirilmişdir. Bundan başqa, Veb-saytda "Dağlıq Qarabağ problemi" bölməsində Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlar verilmişdir. İnformasiya resurs şöbəsi həmçinin, kitabxananın saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir və nəzarət funksiyasını həyata keçirir. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi Kataloqlaşdırma modulunun bazasından istifadə edərək elektron resursların bazalarının yaradılmasını həyata keçirir. (8)

Aran iqtisadi regionuna daxil olan Şirvan şəhəri, təhsil səviyyəsinə görə iqtisadi regionda xüsusi mövqeyə malikdir. Şəhərdə əhalinin sayı (1 yanvar 2010-cu il) 78,1 min nəfər olmuşdur. Şirvan şəhərində 40 kitabxana fəaliyyət göstərir. Bu, ümumi ölkə kitabxanalarının 0,5%-ni təşkil edir. Kitabxanaların 20-i (50%) Mədəniyyət və Turizm Nazirliyinin, 23(44,3%)

Təhsil Nazirliyinin tabeliyindədir. Mədəniyyət və Turizm Nazirliyi sisteminə tabe olan kütləvi kitabxanaların fondu, 2000-2009-cu illərdə 180,3 min nüsxədən 183,3 min nüsxəyə qədər artaraq zənginləşmişdir. Şirvan şəhərində yerləşən kitabxanaların ümumi fondu cəmi 720,611 nüsxədir. Kitablar fondun 696.862 (96,7%) təşkil edir.(7.S.85)

Şirvan Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1979-cu ildə S.Ə.Şirvani adına Mərkəzi şəhər kitabxanasının bazası əsasında yaradılmışdır. Mərkəzi kitabxana əhalinin sıx yaşadığı ərazidə yerləşir. Kitabxananın əhatəsində 12 min əhali yaşayır. Mərkəzi kitabxana 12 ədəd komputer dəsti ilə təchiz edilmiş, internet sisteminə qoşulmuş informasiya təlim mərkəzi fəaliyyət göstərir. Kitabxananın nəzdində olan bu mərkəz, bütün oxucu qruplarına pulsuz olaraq komputer bilgiləri ilə bərabər ingilis danışıq dilini də öyrədir. Mərkəzi kitabxananın xidmət şöbəsinə abonoment, oxu zalı daxildir. Ötən ildə Mərkəzi kitabxanaya 616 nüsxə kitab daxil olub. Onlardan 548-i azərbaycan dilində, 15 nüsxə isə digər dillərdə olub. Ötən ildə Mərkəzi kitabxanada 3714 nəfər oxucu, 53626 nüsxə kitab verilişi, 26756 nəfər gəliş olmuşdur. Mərkəzi kitabxanada il ərzində 49 tədbir keçirilmişdir. Abonoment şöbəsində 1523 oxucu, 8302 gəliş, 21518 nüsxə kitab verilişi, oxu zalında 1590 oxucu, 17462 gəliş, 14191 nüsxə kitab verilişi, 49 tədbir keçirilmişdir.(10.)

Şirvan şəhərində əhalinin milli tərkibi müxtəlifdir. Belə ki, burada azərbaycanlılarla yanaşı, ruslar, ləzgilər, türklər, ukraynalılar, tatarlar, gürcülər, avarlar və s. yaşayır. Burada, ali təhsillilərin sayı 7,8% təşkil edir ki, bu da, rayon üzrə ixtisaslı kadrların hazırlanmasına və yeni tədris ocaqlarının yaradılmasına ehtiyac olduğunu göstərir. Əhalinin informasiya təminatının yüksəldilməsində, Şirvan MKS-nin rolunu xüsusi ilə qeyd etmək lazımdır.

2013-cü ildə kitabxanada ulu öndər H.Əliyevin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar sərgi təşkil olunmuşdur. Kiçik yaşlı oxuculara işğal olunmuş rayonların tarixi, ərazisi, mədəniyyəti haqqında məlumat verilir. Kitabxanada narkomaniyaya qarşı mübarizədə "İctimaiyyətin və ailənin rolu" mövzusunda dəyirmi masa keçirilmişdir. Yeni daxil olan kitabların təbliği məqsədilə kitab sərgiləri, tövsiyyə ədəbiyyat siyahıları tərtib olunmuşdur. Yeni daxil olan kitabların təqdimatları keçirilmişdir. Bu tədbirlərə yeniyetmələr və tələbə gənclər cəlb olunmuşlar.

Beynəlxalq Ana dili günü münasibətilə «Ana dilim-doğma dilim» adlı kitab sərgisi təşkil olunmuş, oxucu konfransı keçirilmişdir. Beynəlxalq



Sülh günü münasibətilə «Biz sülh istəyirik» adlı uşaqların əl işlərindən ibarət sərgi təşkil olunmuş, «Bütün dünyaya sülh gərəkdir» adlı oxucu konfransı keçirilmişdir. Dövlət bayrağı günü münasibətilə «Bir kərə yüksələn bayraq bir daha enməz», 28 May Respublika günü münasibətilə «Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycan Respublikası», 17 noyabr Milli Dirçəliş günü münasibətilə «Müstəqilliyimiz əbədidir», Beynəlxalq Uşaq kitabı günü münasibətilə «Kitab bilik mənbəyidir», 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə «Uşaqlar bizim gələcəyimizdir», 26 iyun Silahlı qüvvələr günü münasibətilə «Azərbaycan deyəndə» adlı oxucularla söhbətlər təşkil olunmuş, dəyirmi masalar keçirilmişdir.(10.)

Milli bayramımız olan Novruz bayramı münasibətilə «Elimizə bahar gəlir» adlı tədbir keçirilmişdir. 2 Fevral Gənclər günü münasibətilə «Gənclər bizim gələcəyimizdir»-mövzusunda məktəblilərlə söhbət aparılmışdır. 15 Sentyabr Bilik günü münasibətilə, 5 Oktyabr Müəllimlər günü münasibətilə bir sıra tədbirlər keçirilmişdir.

Kitabxanada şair və yazıçıların yubileylərinə həsr olunmuş bir sıra tədbirlər hazırlanıb keçirilmişdir. Xalq şairi Z.Yaqubun anadan olmasının 60 illiyi, F.Qocanın anadan olmasının 75 illiyi, Z.Cabbarzadənin anadan olmasının 90 illiyi, S.S.Axundovun anadan olmasının 135 illiyi, R.Rzanın anadan olmasının 100 illiyi münasibətilə sərgilər təşkil olunmuş, kitab müzakirələri keçirilmiş, biblioqrafik icmallar hazırlanmışdır.

Mərkəzi kitabxananın oxu zalında bir sıra daimi və dəyişən sərgilər var. Onlardan "Ümummilli lider Heydər Əliyev" guşəsi (kitab sərgisi və foto-stend), "Prezident İlham Əliyev Şirvan şəhərində" foto-montaj, "Doğma şəhərimiz Şirvan", "Yaddan çıxmaz Qarabağ" və s. mövzularda sərgilər diqqəti cəlb edir. Kitabxanada hər ay günün hadisələri ilə əlaqədar olaraq müvəqqəti sərgilər də hazırlanır. (10.)

Mərkəzi kitabxananın oxu zalında keçirilən "Milli qürur günümz", "Unudulmayan tarix", Şəhid Sadiq Atayevin anim mərasimi, "Heydər Əliyev və dövlətçilik ənənələri", "Biz müstəqil Azərbaycanın övladlarıyıq" və s. mövzularda ədəbi-bədii gecələr, disputlar, söhbətlər, səhərciklər diqqətəlayiq olmuşdur. Mərkəzi kitabxana gənclərə vətənpərvərlik tərbiyəsinin aşılanması ilə əlaqədar olaraq, hər ay müxtəlif mövzularda tədbirlər hazırlayır.

MKS-nin nəzdində 1 Uşaq kitabxanası və uşaq şöbəsi fəaliyyət göstərir. Kitabxananın ətrafında "Şəfəq", "Yasəmən ", "Bənövşə" uşaq bağçaları, 9, 10, 16, 18, 21 saylı orta məktəblər yerləşir. Uşaq kitabxanaları günün tələbləri səviyyəsində işləmiş öz oxucularına günün aktual məsələlərini, milli

bayramları təblig etmiş, tarixi və əlamətdar günləri, sair və yazıçıların, alimlərin, incəsənət, elm adamlarının yubileylərini balaca oxucularla birlikdə qeyd etmişlər (10.)

2011-ci il 20 Yanvar -hüzn günü ilə əlaqədar olaraq, "Şəhidlər ölməzdir" mövzusunda disput, 8 mart Beynəlxalq qadınlar günü münasibəti ilə "Ana müqəddəsdir" mövzusunda səhərcik, Novruz bayramı münasibəti ilə "Bahar gəlir yurdumuza", "Novruz milli bayramımızdır" mövzusunda şənlik keçirilmişdir. Vətənpərvərlik tərbiyəsi ilə əlaqədar olaraq, uşaqlar üçün "Şəhidlər və qəhrəmanlar qəlbimizdə yaşayırlar", "Ana dilim-şirin dilim", "Azərbaycan yurdum mənim " "Heydər Əliyev və uşaqlar", "Şəhərimizin Milli Qəhrəmanları" və s. mövzusunda müxtəlif tədbirlər keçirmişlər. Ötən hesabat ili ərzində 2 saylı filialın kitab fondu 16883 nüsxə olmaqla, fonddan 1217 nəfər oxucu istifadə etmişdir. Kitab verlişi 26504 nüsxə olmuş, kitabxanalarda 36 tədbir həyata keçirilmişdir. Uşaq şöbəsinin fondu 13099 nüsxə olmaqla, 1317 nəfər oxucuya 27299 nüsxə kitab verilişi olmuşdur. Cəmi 41 tədbir keçirilmişdir.(10.)

Aran iqtisadi regionuna daxil olan Yevlax şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1976-cı ildə təşkil edilmişdir. Yevlax şəhərinin ümumi əhalisi 105188 nəfərdir. Əhalinin 27200 nəfəri kitabxana oxucularıdır. MKS-in ümumi fondu 548.800 nüsxədir. Kitabxananın ümumilikdə 59 filialı var.(9.)

Mərkəzi kitabxana oxucuların kitaba və digər informasiya mənbələrinə olan tələbatını ödəmək üçün kataloq və kartoteka sistemindən, tövsiyyə ədəbiyyat siyahılarından və s.istifadə edir. Kitabxananın kitab fondu 63941 nüsxədir. Kitabxana il ərzində 2196 nəfər oxucuya xidmət göstərir. Mərkəzi kitabxanada il ərzində əlamətdar tarixi günlərə, şair və yazıçıların yubileylərinə, gənclərdə vətənpərvərlik ruhunun tərbiyəsinə, işğal olunmuş rayonlarımızın işğal günlərinə, kitabxanaya yeni daxil olan ədəbiyyatın təbliğinə və s. həsr olunmuş kütləvi tədbirlər keçirilmişdir. Kitabxana hər il 20 yanvar hüzn günü, 26 fevral Xocalı faciəsi günü, 31 Mart Azərbaycanlıların soyqırımı günü, 9 May qələbə günü, 28 May Respublika günü, 1 iyun Uşaqları Beynəlxalq Müdafiə günü, 15 iyun Milli Qurtuluş günü, 18 Oktyabr Dövlət müstəqilliyi günü, 12 Noyabr Konstitusiya günü, 17 Noyabr milli dirçəliş günü, 31 dekabr dünya azərbaycanlılarının həmrəyliyi günü kimi əlamətdar və tarixi günlərə həsr olunmuş dəyirmi masalar, görüşlər, müzakirələr keçirir, sərgilər fotostendlər təşkil edir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarının icrası ilə əlaqədar proqramın icrasına həsr



olunmuş ədəbiyyatlardan və mətbuat yazılarından ibarət sərgilər təşkil olunur.

Mərkəzi kitabxana öz fəaliyyətini yaxşılaşdırmaq üçün, M.F.Axundov adına Milli Kitabxana, F.Köçərli adına Respublika Uşaq kitabxanası ilə əməkdaşlıq edir. Əhaliyə kitabxana xidmətini müasir tələblərə uyğun olaraq qurmaq üçün, metodik tövsiyyələr alır, kitabxana fondunun müasir ədəbiyyatlarla komplektləşdirilməsində Milli kitabxananın imkanlarından istifadə olunur.(9.)

Mərkəzi şəhər kitabxanası əsaslı şəkildə yenidən qurulmuş, ən müasir inventar və avadanlıqlarla təchiz olunmuşdur

Yevlax şəhər Uşaq kitabxanası 1935-ci ildə təşkil olunmuşdur. Kitabxanada uşaqların milli ruhda tərbiyə edilməsi, vətənə, xalqa ləyaqətli bir vətəndaş kimi yetişməsi, təlim-tərbiyənin yaxşılaşdırılması üçün mühüm tədbirlər hazırlanıb həyata keçirilir. Kitabxananın fondunda 10015 nüsxə ədəbiyyat vardır ki, bunlardan 1652 nüsxəsi latın qrafikalı ədəbiyyatlardır. Kitabxana il ərzində 1211nəfər oxucuya xidmət göstərir. Kitabxanaya yeni daxil olan ədəbiyyatların müntəzəm olaraq sərgiləri təşkil edilir. Məktəbli oxucularda vətənpərvərlik tərbiyəsinin təbliği ilə əlaqədar «Vətən bizi çağırır», «Azərbaycan-yurdum mənim», və s. adlarda sərgilər təşkil olunmuşdur.(9.)

Aran iqtisadi regionunun tərkibinə daxil olan Ağdaş rayonunda, ilk kitabxana 1923-cü ildə təşkil edilmiş, bu kitabxananın fondu əsasında 1980-ci ildə Ağdaş rayon MKS-i yaradılmışdır. MKS 6 şöbə, 1 uşaq kitabxanası və 79 filial kitabxanadan ibarətdir. Oxuculara xidmət şöbəsi - 27903 nüsxə fondla 4 min nəfərə yaxın oxucuya xidmət edir. Oxu zalında müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirilir. Hər il şöbənin fondu yeni ədəbiyyatla zənginləşdirilir. 2011-ci ilin statistik məlumatlarına görə 593 nüsxə yeni kitab şöbənin fonduna daxil olmuşdur. İnformasiya-Resurs mərkəzi- kitabxananın Veb-saytının idarə olunmasını, buraya yeni məlumatların operativ daxil edilməsini, əlavə və dəyişikliklər aparılmasını həyata keçirir. Rayon MKS-də oxucuların sorğularına operativ cavab vermək məqsədilə kitabxananın saytı istifadəyə vermişdir ki, saytda yerləşən Elekron kataloq bölməsi 2 hissədən ibarətdir: Kitablar və Elektron kartoteka;

İstifadəçilər lazımi ədəbiyyatı açar sözlər vasitəsilə saytda müvafiq bölmələrə daxil etməklə istədikləri ədəbiyyatı əldə edə bilərlər. (11.)

Ağcabədi rayon Mərkəzi Kitabxanası 1934-cü ildə yaradılmışdır. 1977-ci ildə onun bazası əsasında, Mərkəzləşdirilmiş Kitabxana Sistemi

yaradılıb. MKS rayon əhalisinə və ərazidə yaşayan qaçqın və məcburi köçkünlərə yüksək səviyyədə xidmət göstərir. Mərkəzləşdirilmiş Kitabxana Sistemində, MKS-in mərkəzi aparatı, Metodika və biblioqrafiya şöbəsi, Oxuculara xidmət şöbəsi, Komplektləşdirmə və kitab işləmə şöbəsi, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, İnformasiya-resurs şöbəsi və rayon MKS-nin Uşaq şöbəsi, 2 qəsəbə kitabxanası və 45 kənd kitabxana filialları var. MKS-nin fondu 361742 nüsxə, oxucularının sayı 51825 nəfər, yeni daxil olan kitabların sayı 478 nüsxədir. Fondun 14856 nüsxəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə əlaqədar nəşr olunub kitabxanalara hədiyyə edilən kitablardır.(12.)

Beyləqan rayonunda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması və kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində işlər aparılır. Dövlət Proqramının uğurlu icrasını təmin etmək məqsədi ilə, Beyləqan rayonunda 2012-ci il "Kitabxanalar ili" elan olunmuşdur. Rayonun kitabxana fondlarının müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, kitabxanalarda multimedia resursları fondlarının yaradılması, onların CD və DVD ilə təmin edilməsi məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyindən 1000 ədəd CD, 11 yeni kompüter, 2 projektor, 2 ekran, disklər üçün 10 ədəd rəf verilmiş, Mərkəzi kitabxanada təmir işlərinə başlanılmışdır. Hazırda, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi İRBİS-64 proqramında işləyir. Əhalinin mütaliəyə marağını artırmaq məqsədi ilə, MKS tərəfindən oxucu konfransları, "dəyirmi masalar", "kitab təqdimatları" keçirilir. Cari ildə "kitab ən yaxşı dostdur", "sizin sevimli kitablarınız", "nağıllar qonağımızdır", "Oxu məni" və.s kimi tədbirlər də keçirilmişdir.(17.)

Kürdəmir rayon Mərkəzi kitabxanası 1938-ci ildə yaradılmışdır. Kürdəmir rayon MKS-i Mərkəzi kitabxananın bazası əsasında təşkil olunmuşdur. MKS-nin tərkibində Mərkəzi kitabxana və Uşaq kitabxanası daxil olmaqla, cəmi 50 kitabxana var. Bu kitabxanaların ümumilikdə, 337784 nüsxə fondu var. Onların 81546 (24,2%) latın qrafikası ilə nəşr olunub. MKS-də oxucuların sayı 41978 nəfər, o cümlədən, Mərkəzi kitabxanada 4011nəfər, Uşaq kitabxanasında 1910 nəfər, şəhər və kənd kitabxanaları üzrə 35057 nəfərdir. MKS üzrə kitab verilişi 904992 nüsxə olmuşdur. Bu göstəricilər, Mərkəzi kitabxana üzrə 86237 nüsxə, Uşaq kitabxanası üzrə 36009 nüsxə, şəhər və kənd kitabxanaları üzrə 782746 nüsxə təşkil etmişdir.



Oxuculara xidmət şöbəsi, böyük oxucu kütləsini mütaliəyə cəlb etmək üçün, ərazidə yerləşən bütün müəsisələrlə və əhali ilə sıx əlaqə saxlayır, fondda olan yeni ədəbiyyat haqqında məlumat verir, yeni kitabların sərgilərini təşkil edir. Şöbə gün ərzində 30-35 oxucuya xidmət edir. Eyni zamanda, oxu zalından gün ərzində 40 nəfərə qədər oxucu istifadə edir. Şöbədə əlamətdar və tarixi günlər, yubileylər təşkil edilir. Xidmət şöbəsinin fondunun həcmi 24771 nüsxə, oxucuların sayı 4011 nəfər, kitabverilişi 86237 nüsxədir.

Komplektləşdirmə və Kitabişləmə şöbəsi, oxucuların tələbatlarının ödənilməsi üçün, universal profilli kitab fondunu komplektləşdirir. Dövlət vəsaiti hesabına və digər mənbələrdən yeni ədəbiyyatları almaqla, kitab fondunu daim zənginləşdirir.Yeni daxil olan ədəbiyyatların uçotunu aparır, ədəbiyyatların elmi və texniki cəhətdən işlənməsini təşkil etdikdən sonra, kitabxana filiallarına çatdırılması işini həyata keçirir. Fondun mühafizəsinə və məzmunca aktuallığını itirmiş və istifadə olunaraq yararsız vəziyyətə düşmüş ədəbiyyatrlardan təmizlənməsinə nəzarət edir.

Metodika-Biblioqrafiya şöbəsi, metodki mərkəz olaraq, MKS nəzdində fəaliyyət göstərir, kitabxanalara metodiki köməklik edir və sistemin oxucularının biblioqrafik xidmətini təşkil edir. Soraq-biblioqrafiya aparatını təkmilləşdirir, biblioqrafik işi əlaqələndirir və ona nəzarət edir. Məqalələrin sistemli və diyarşünaslıq kartatekalarını tərtib edir. Yeni daxil olan ədəbiyyatın məlumat bülletenlərini və tövsiyə siyahılarını tərtib edir. Sistemin bölmələrinin fəaliyyətini məzmun, forma və metodiki baxımdan əlaqələndirir, işin yeni üsul və metodlarını öyrənməklə, qabaqcıl təcrübələri aşkar edir. Kadrların ixtisaslarının artırılması işinin təşkil olunmasına kömək edir. Kütləvi tədbirlərin keçirilməsinə təcrübi, metodik yardım göstərir,müxtəlif mövzularda metodik vəsaitlər hazırlayır.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, kitabxanalrın elektron kataloqunun idarə olunması, elektron kataloqların "Katoloqlaşdırılma", "Komplektləşdirmə", "oxucu" modullarının işini təşkil etmək, habelə MKS-də kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işini təşkil edir.

İnformasiya-Resurs şöbəsi kitabxanaların veb-saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir. Nəzarət funksiyasını həyata keçirir. Şöbə kitabxanalarının elektron kitabxanalarının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaş-

dırılması şöbəsinin həyata keçirdiyi "Kataloqlaşdırma" modulunun bazasından istifadə edərək, elektron resursların bazalarının yaradılmasını həyata keçirir. Şöbə fasiləsiz internetlə təmin olunmuş, oxucuların istifadəsinə verilmişdir. Şöbənin əsas vəzifəsi: informasiyalı cəmiyyətdə istifadəçilərin informasiyaya olan tələbatlarını ödəməkdir.

2008-ci ildə Kürdəmir MKS-də Amerika mərkəzi yaradılmışdır. Mərkəzin yaradılmasında əsas məqsəd, informasiya axınının artdığı və yeniləndiyi müasir dövrdə, getdikcə artan oxucu sorğularının daha operativ və tez yerinə yetirilməsindən və onun xidmətindən istifadə edən tələbatçıların ümumi internet kompüter biliklərinə yiyələnməsinə kömək etməkdən ibarətdir. (20.)

Bərdə rayon Mərkəzi Kitabxanasının əsası 1954-cü ildə qoyulmuş, 1967-ci ildən isə Mərkəzi kitabxana kimi fəaliyyət göstərir. 1980-ci ilin noyabr ayından Bərdə rayon kitabxanaları mərkəzləşdirilmişdir. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibinə 1 mərkəzi kitabxana, 56 filial kitabxanası daxildir. MKS-in 536470 nüsxə kitab fondu, 48 min nəfərdən çox oxucusu var. MKS-də 7 şöbə fəaliyyət göstərir. Mərkəzi kitabxanın və filiallarının xidmət etdiyi ərazidə əhalinin sayı 147300 nəfərdir. MKS-i 1995-ci ildən fəaliyyətinə görə II qrupa keçirilmiş, "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında"qanunları, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələri, Respublika Prezidentinin kitabxana işi ilə bağlı bütün qərar və sərəncamlarını, digər hüquqi sənədləri rəhbər tutaraq fəaliyyət göstərir.(13.)

Kitabxanada oxuculara operativ biblioqraafik xidmət göstərilir. Kitabxananin bütün şöbələri bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərir. Kitabxananın özülünü təşkil edən Oxuculara xidmət şöbəsi – oxuculara abonement, oxu zalı, internet vasitəsi ilə xidmət göstərir. Bundan əlavə oxuculara xidmət şöbəsi kitab təbliği işində əyani və şifahi təbliğat formalarından istifadə edərək müxtəlif məzmunlu tədbirlər hazırlayıb keçirir. Vaxtaşırı olaraq, ən çox oxunan kitabların monitorinqini keçirir, kitabxanaların komplektləşdirilməsi üçün oxucular tərəfindəm tələb olunan ədəbiyyatın siyahısını tərtib edib komplektləşdirmə şöbəsinə təqdim edir. İnformasiya-resurs və biblioqrafik proseslərin avtomatlaşdırılması şöbələri kitabların və dövrü mətbuat məqalələrinin elektron kataloqa yazılmasını, veb-sayta məlumatların daxil edilməsini və proqramlaşdırılmasını həyata keçirir. MKS oxuculara məsafə limitsiz biblioqrafik xidmət göstərir. Bu məqsədlə kitabxananın veb-



saytı oxucuların istifadəsinə verilmişdir. Saytın Elektron kataloq bölməsi 3 hissədən ibarətdir: Kitablar; Dövrü mətbuat- 2011; Elektron kartoteka- 2012; (13.)

Aran iqtisadi regionuna daxil olan Göyçay rayon Mərkəzi kitabxanası 1923-cü ildən fəaliyyət göstərir. Kitabxana M.Ə.Sabirin adını daşıyır. Şəhər əhalisinə xidmət sistemində mərkəzi şəhər kitabxanası xüsusi yer tutur. Rayon MKS-nin tərkibində 63 kitabxana və kitabxana filialı fəaliyyət göstərir. Bunlar 1 mərkəzi, 2 uşaq kitabxanası, 2 şəhər kitabxana filialı, 1 gənclər kitabxanası, 57 kənd kitabxanasıdır. Mərkəzi şəhər kitabxanası rayonun mərkəzi dövlət kitabxanası olub, yerli əhaliyə, idarə və təşkilatlara, ümumtəhsil məktəblərinə kitabla və biblioqrafik materiallarla xidmət etmək işini həyata keçirir. Rayon kitabxanasının əsas vəzifəsi, dövlətin siyasətini təbliğ etmək, kitab, jurnal, qəzetlərin, habelə elektron informasiya daşıyıcılarının köməyi ilə elm, texnika, mədəniyyət və incəsənətin bütün sahələrindən məlumat almaq işində rayon əhalisinə, oxuculara xidmət etmək, rayonda kitabxana işinin inkişafına və möhkəmləndirilməsinə kömək etməkdir. Kitabxana xidməti abonoment, qiraət zalı, kitabxanalararası abonoment və biblioqrafiya işi, elmi-texniki informasiya, fərdi və kütləvi, şifahi və yazılı vasitələrlə təşkil edilir. Kitabxananın 6 şöbəsi var.(19.)

Hacıqabul rayonunda 66 kitabxana var. Bu kitabxanalardan 19-u(28,8%) şəhərdə, 47-i(71,2%) kənd yerlərində yerləşir. Kitabxanaların 32-i Mədəniyyət və Turizm Nazirliyi, 32(48,5%) Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir.(4.) Hacıqabul rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 27 avqust 1990-cı ildə Hacıqabul rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 05 saylı qərarı ilə yaradılmışdır. Hacıqabul rayon Mərkəzi kitabxanasının əsası 1939-cu ildə qoyulmuşdur. 01 yanvar 2012-ci il tarixinə olan məlumata əsasən Hacıqabul rayonunda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Sisteminə daxil olan 32 dövlət kütləvi kitabxanası fəaliyyət göstərir. Bu kitabxanalardan 1-i rayon Mərkəzi kitabxanası, 1-i rayon Uşaq kitabxanası, 6-sı şəhər və qəsəbə kitabxanası, 24-ü isə kənd kitabxana filialıdır. Rayon Mərkəzi kitabxanasının 7 şöbəsi var. İnformasiya təlabatçılarının sorğularının ödənilməsində xüsusi rol oynayan abonement bölməsinin işi oxuculara kitab və digər informasiya daşıyıcıları vasitəsilə xidmətdən ibarətdir. 01 yanvar 2012-ci il tarixinə olan məlumata görə Abonement bölməsinin kitab fondu 14836 nüsxədən ibarət olmuşdur. Bundan 7458 nüsxəsi latın qrafikalı ədəbiyyatdır. Abonement

bölməsinin kitab fondundan 2299 nəfər oxucu istifadə edir. Oxucuların informasiya tələbatının ödənilməsində, onlara biblioqrafik xidmətin göstərilməsində kitabxananın veb saytının yaradılmasının xüsusi əhəmiyyəti vardır. Kitabxanada bu işin həyata keçirilməsi ilə İnformasiya-Resurs şöbəsi məşğul olur. Bu şöbə kitabxananın Veb-saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir, nəzarət funksiyasını həyata keçirir. Şöbə kitabxananın Elektron kitabxanasının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir.

Əsası 1947-ci ildə qoyulmuş İmişli rayon Mərkəzi kitabxanası 30 il sonra- 1977-ci ildə mərkəzləşdirilmişdir. Hazırda 1 şəhər, 1 gənclər, 1 uşaq, 63 kənd kitabxana filialı vasitəsi ilə əhalinin informasiya təminatı həyata keçirilir. MKS-nin 384604 nüxsə kitab fondu var (14.)

Neftçala rayon ərazisində kütləvi kitabxanalar hələ ötən əsrin ortalarından fəaliyyətə başlamışdır. Hazırda Neftçala rayon MKS-i rayonun kənd və qəsəbələrində olan filial kitabxanalara inzibati və metodiki rəhbərlik edir və kitabxananın müxtəlif ədəbiyyatlarla zəngin olan fondu ilə oxuculara xidmət göstərir. Kitabxananın 52 filialı var. Bu kitabxanalardan 49-u kənd və qəsəbə, 3-ü isə Uşaq kitabxanalarıdır. 2011-ci ilin yekun hesabatına görə, MKS 39193 nəfər oxucuya xidmət göstərmişdir. Hazırda MKS-in kitab fondu 299759 nüsxədir.(21.)

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, elektron kartotekanın təşkili və zənginləşdirilməsinə nəzarət edir. Müasir informasiya texnologiyaları, elektron resurslar vasitəsi ilə oxuculara xidmət işini yüksək səviyyədə həyata keçirir. Elektron kataloqun yaradılması işində Xidmət şöbəsi ilə digər şöbələrin işini əlaqələndirir. Müxtəlif oxucu qruplarına xidmət edir, daimi sərgilərin və kütləvi tədbirlərin təşkilini həyata keçirir. Kitab fondu 52570 nüsxə, oxucuların ümumi sayı 4140 nəfərdir. Neftçala rayon MKS-nin saytı 2009-cu ilin sentyabr ayından etibarən fəaliyyət göstərir. Saytda çox zəngin məlumatlar yerləşdirilmiş, fondun elektron kataloq və elektron kitabxana bölmələri yaradılmışdır. Hər iki bölmə oxuculara virtual xidmət göstərir.(21.)

Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1975-ci ildən fəaliyyətə başlamışdır. Nizami Gəncəvi adına mərkəzi kitabxana adlanan MKS, özündə 56 filialı birləşdirir. MKS 1 uşaq kitabxanasını, 1 gənclər kitabxanasını, 47 kənd kitabxana filialını, 5 şəhər kitabxanasını əhatə edir. Biblioqrafik xidməti tam və operativ həyata keşirmək üçün, 2009-cu ildə Ni-



zami Gəncəvi adına Mərkəzi Kitabxanada Elektron Kitabxananın yaradılması üçün 11 kompüter və digər avadanlıqlar alınmışdır. MKS-in oxucularının ümumi sayı 47.531 nəfər, kitabxana fondunun ümumi həcmi 527.339 nüsxədir. Kitabxananın 5 şöbəsi var. Abonoment şöbəsi, kitabxana yarandığı ilk gündən fəaliyyət göstərir. Şöbənin fondu bədii və elmi ədəbiyyatla zəngindir. Şöbədən ayrı-ayrı oxucu qrupları istifadə edir. Gün ərzində 20-25 nəfər oxucuya xidmət göstərilir. Şöbənin əlifba və sistemli kataloqları var. Fondda "Açıq rəf"-də sərgilənən kitablar oxucuların marağına və kitab seçməsinə şərait yaradır. Şöbədə oxucuların maraq dünyasına məxsus sərgilər, yerli yazarların sərgiləri, yeni alınmış kitabların sərgiləri nümayiş etdirilir. Kitabxananın müasir səviyyədə tərtib edilən saytında Elektron kataloq və Elektron kitabxana bölmələrində kitabxananın zəngin kitabxanasının fondu oxucularin virtual istifadəsinə verilmişdir. Elektron kataloq bölməsində materiallar 4 qrupa ayrilmışdır: Kitablar, Elektron kartateka, Retro kitablar, Yeni kitablar, Diyarşünaslıq (22.)

Zərdab rayon Mərkəzi Kitabxanasının saytında rayonun yetirmələri Həsən Bəy Zərdabi, Milli Azərbaycan hökumətinin yaranmasında fəallıq göstərmiş Şirin Nuriyev, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov və b. şəxslər haqqında məlumatlar verilir. Saytın maraqlı linklərindən biri "Əkinçi" bölməsidir. Burada Azərbaycanda ilk mətbu orqan olan "Əkinçi" qəzeti, onun yaradıcısı Həsən bəy Zərdabinin bu sahədəki fəaliyyəti haqqında məlumatlar təqdim edilir. Kitabxananın Veb-saytında "Kitabxana" və "strukturu" bölməsində rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, onun fəaliyyəti və şöbələri haqqında, "Tədbirlər" bölməsində isə keçirilən tədbirlər haqqında məlumatlar təqdim edilir. Bundan başqa, "Yeni nəşrlər" bölməsində kitabxana fonduna daxil olan yeni kitabların siyahısı təqdim edilir.(23.)

Regionların inkişafı orada olan mədəni mərkəzlərin, şəhər kitabxanalarının inkişafına da təsir etmişdir. Region əhalisinin biblioqrafik-informasiya təminatının ödənilməsində kitabxanaların fəaliyyəti bilavasitə, o zaman keyfiyyətli olur ki, həm kitabxanaların informasiya resursları, həm ixtisaslı kitabxanaçı-biblioqrafların iş təcrübəsi bu işdə vəhdət təşkil etsin.

Regionlarda biblioqrafik informasiya təminatının müasir vəziyyəti onu göstərir ki, regionlarımızla bağlı qəbul olunmuş Dövlət Proqramları ayrı-ayrılıqda hər bir regionun iqtisadiyyatı ilə bərabər, onun təhsilinin, mədəniyyətinin inkişafına da yol açmışdır. Regionlarda fəaliyyətdə olan kitabxanalarda biblioqrafik informasiya təminatının yaxşılaşdırılması üçün xüsusi mərkəzlərdən kitabxanalara ezamiyyələr təşkil edilmişdir. Bu

ezamiyyələr nəticəsində yerlərdə mövcud olan kitabxanalarda nöqsanlı cəhətlər nəzərə alınmış, onların kitabxana fondunun vəziyyəti qiymətləndirilmişdir.

Müasir dövrdə, regionlarda kitabxanalarda biblioqrafik informasiya təminatının təşkilində mühüm cəhətlərdən biri regionlarda olan kitabxanalarda elektron kataloq sisteminin təşkili və ondan istifadənin genişləndirilməsi olmuşdur. Demək olar ki, regionlarımızda kənd yerlərində kitabxanalarda elektron kataloq yoxdur. Bu da əslində, kitabxanaların inkişafı və biblioqrafik-informasiya təminatının həyata keçirilməsində böyük çətinliklər yaradır.

## ƏDƏBİYYAT:


1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. – 2008. - №2. – s.6-29.
2. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan. -2007.- 21 aprel.
3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. //Kitabxanaşünaslıq və biblioqrafiya, – 1999. №1.-s.3-16.
4. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-B.- 2009.-88s.
5. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə) .-B., 2003.- 314s.
6. İsmayılov N.İ., Bayramova İ.Z. Azərbaycan Respublikasının regionlarında şəhər əhalisinin informasiya təminatının bəzi məsələləri.//Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.-2010.- № 2.-s.341-350.
7. Bayramova İ.Z. "Azərbaycan Respublikasinin regionlarinin kitabxana-informasiya resurslarinin yerləşməsinin vəziyyəti (Aran iqtisadi rayonunun nümunəsində)" // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. – 2012. №2. – s.80-99.
8. http://minqacevirmks.webs.com
9. http://www.yevlaxmks.webs.com





10. http:// www.shirvaninfo.webs.com
11. http:// www.agdash-ih.gov.az
12. http:// www.acabedi-mks.webs.com.
13. http:// www.barda-mks.az.
14. http:// www.imislimks.webs.com.
15. http:// www.saatli-ih.gov.az.
16. http:// www.ucar-ih.gov.az
17. http:// www.beylaqan-mks.az.
18. http:// www.bilesuvar.mks.ucoz.com.
19. http:// www.qoycaymkswebs.com.
20. http:// www.kurdemir-mks.az.
21. http:// www.neftcala-mks.az.
22. http:// www.salyan-mks.az.
23. http:// www.zerdab-mks.info


**И.Байрамова**

## ОРГАНИЗАЦИЯ БИБЛИОГРАФИЧЕСКОГО-ИНФОРМАЦИОННОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В АРАНСКОГО ЕКОНОМИЧЕСКОГО РАЙОНА

### РЕЗЮМЕ

В статье излагается особенности организации библиотечно-информационного обслуживания читателей в Аранского экономического района, о тагже проявление заботы государства в этой области, о роле библиотек в повышение интеллектуально- культурного развития уровня населения.

**I.Bayramova**

## ORGANIZATION OF BIBLIOCRAPHICAL-INFORMATION SERVICE OF READERS IN THE ARAN ECONOMICAL REGION

### SUMMARY

It was accounted the specific features of organization of bibliographical-information service of readers in the Aran economical region. At the some trine, in this spector deals with the increasing of libraries becase of development of people`s intellectual-cultural level,the reflection of state`s care to it.